

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 15 (21.676)

*21 yanvar 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəlib.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın dövlət himni səslənib.

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak edirdilər.

## Azərbaycan xalqının qəhrəmanlıq və mübarizə tarixi

## *Naxçıvanda 20 Yanvar faciəsinin 27-ci ildönümü qeyd edilmişdir*





Naxçıvan Muxtar Respublikasında hər il 20 Yanvar şəhidlərinin xatirəsi əziz tutulur, şəhər və rayonlardakı şəhidlər xiyabanlarını minlərlə insan ziyarət edir.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəlmiş, xiyabandakı "Ana abidəsi"nin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

Ali Məclisin Sədri Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhidlik zirvəsinə ucalanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə və digər mərkəzi təşkilatların, məhkəmə, hüquq-mühafizə orqanlarının, hərbi hissələrin, elm və təhsil müəssisələrinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, ictimai təşkilatların və yaradıcılıq birliklərinin, kütləvi informasiya vasitələrinin, mədəniyyət, səhiyyə və sağlamlıq müəssisələrinin kollektivləri, şəhər sakinləri şəhidlərin əziz xatirəsini ehtiramla yad etmişlər.



Azərbaycan xalqının tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar faciəsinin törədilməsindən 27 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli qırğın törədildi. Faciə zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almışdır. Bu qanlı hadisənin törədilməsində əsas məqsəd azadlıq, suverenlik uğrunda mübarizə aparan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını əzmək idi. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"20 Yanvarda Azərbaycanın azadlıqsevər, vətənpərvər insanları xalqımıza qarşı göstərilən ədalətsizliyə görə, Azərbaycan torpaqlarına erməni silahlı qüvvələrinin təcavüzünün qarşısı alınmadığına görə və milli azadlığa nail olmaq üçün ayağa qalxdılar, etirazlarını bildirdilər. Onları boğmaq üçün, əzmək üçün Sovet İttifaqının qoşunları, sovet ordusunun hissələri ölkəmizə basqın etdi. Ancaq qəhrəman övladlarımız özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdılar".***

20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlmiş və kəskin bəyanatla çıxış edərək Bakıda baş vermiş faciəni törədənlərin məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərimizin bu cəsarətli addımı, qətiyyətli mövqeyi Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizə əzmini daha da artırmışdır.

Qanlı Yanvar faciəsi Azərbaycan xalqının azadlıq istəyinin qarşısını almaq cəhdi ilə yanaşı, həm də ermənilərin işğalçılıq siyasətinin həyata keçirilməsinə xidmət edən terror aktı idi. Ermənilərin faciədən bir neçə gün əvvəl Naxçıvana hücumları bunu bir daha təsdiq edir. 1990-cı il yanvarın 18-də Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" tarixi qərar qəbul etdi. Bu qərara əsasən Naxçıvan MSSR Sovet imperiyasının tərkibindən çıxdı. Yanvarın 20-də Bakıda qanlı hadisələrin törədilməsindən bir neçə saat əvvəl isə ermənilər Sədərəyə və muxtar respublikanın digər sərhəd kəndlərinə hücumlar etdi, Qanlı Yanvar faciəsinin ilk səhifələri yazıldı. Lakin ərazi bütövlüyümüz uğrunda döyüşlərdə naxçıvanlılar düşmənə qarşı mərdliklə dayandı, şəhidlər verərək öz doğma torpaqlarımızı qoruyub saxladılar.

***"Şəhidi olan xalq qəhrəman xalqdır. Biz şəhidlərimizin qəm-qüssəsini çəkirik, ancaq onların şəhidliyə getməsi ilə fəxr edirik. Çünki onlar Vətən, ana torpaq, millət, Azərbaycan yolunda həlak olublar"***, – deyən ulu öndərimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi qiymət verildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar, 1992-ci il yanvarın 13-də isə "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin bəyanatı" qəbul olundu. Ümummilli lider Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətə qayıtdıqdan sonra isə faciəyə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. 1994-cü ilin fevral ayında keçirilən Milli Məclisin xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirildi, "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların

*Ardı 2-ci səhifədə*

ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Hər il 20 Yanvar faciəsinin ildönümü ölkəmizdə geniş qeyd olunur.

Şəhidlik vətənpərvərliyin ən ali məqamıdır. Bu ucalığa yüksələnlərin ömür yolu gələcək nəsillər üçün örnəkdir. 20 Yanvar şəhidlərinin mübarizəsi də Azərbaycan xalqının qəhrəmanlıq tarixi, gənc nəsil üçün vətənpərvərlik dərsidir. Bu gün ölkəmizdə dövlət müstəqilliyimizin qazanılmasında, torpaqlarımızın qorunmasında canlarını qurban verən şəhidlərimizin xatirəsi əziz tutulur, vətənpərvər, dövlətə və xalqa bağlı gənc nəsil yetişdirilir. Qətiyyətli LİDERi və güclü ordusu olan Azərbaycan xalqı əmindir ki, şəhidlərimizin qanı yerdə qalmayacaqdır! Xalqımız bir daha soyqırımlarla, faciələrlə sınağa çəkilməyəcəkdir! Çünki ümummilli liderimiz Heydər Əliyevin yolunun davam etdirilməsi müstəqilliyimizi əbədi edib. Azərbaycan inkişaf edərək dünyada söz sahibi olan dövlətə çevrilib. Xalqımız sabitlik şəraitində yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Bu gün hər bir vətənpərvər insan fəxr edir ki, Azərbaycan kimi müasir və güclü dövlətin vətəndaşıdır. O dövlətin ki, öz vətəndaşlarını darda qoymur. O dövlətin ki, öz vətəndaşlarının arxasında dayanır. O dövlətin ki, öz vətəndaşlarının rifahı üçün əlindən gələni əsirgəmir”.***

Həmin gün saat $12^{00}$-da şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də 20 Yanvar faciəsinin ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Təbrizdə 20 Yanvar faciəsinin ildönümü qeyd olunmuşdur

***Yanvarın 18-də Azərbaycan Respublikasının İran İslam Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir.***

Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Sonra Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş konsulu Əliyənnağı Hüseynov çıxış edərək demişdir ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının müstəqillik arzularını boğmaq, ermənilərin ərazilərimizin işğalına göz yummağa məcbur etmək məqsədinə xidmət etmişdir. Yanvarın 19-dan 20-nə keçən gecə qurbanlar verməsinə baxmayaraq, Azərbaycan xalqı milli azadlıq və istiqlal uğrunda mübarizliyini, əyilməzliyini, məğrurluğunu bir daha nümayiş etdirmişdir. Həmin dövrdə ilk dəfə xalqımızın ümummilli lideri Heydər Əliyev bütün təzyiqlərə baxmayaraq, yerli və xarici kütləvi informasiya vasitələrində bəyanatla çıxış edərək etiraz səsini ucaltmış, hadisəni törədənləri ifşa etmiş, günahkarların cəzalandırılmasını tələb etmişdir. Ulu öndər Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə, eləcə də ölkəmizdə yenidən hakimiyyətə qayıtdıqdan sonra isə 20 Yanvar faciəsinə siyasi qiymət vermişdir.

Baş konsul bu gün ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi və onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərdən danışmış, faciənin ildönümünün hər il ölkəmizdə qeyd olunduğunu bildirmişdir.

Mərasimdə 20 Yanvar hadisələrindən bəhs edən film nümayiş etdirilmiş, hazırlanmış fotostendlərə baxış olmuş, iştirakçılara əyani vəsaitlər paylanmışdır.

İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri, Şərqi Azərbaycan Vilayətinin rəsmiləri, Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu və konsulluğun əməkdaşları, Təbrizdə yaşayan Azərbaycan vətəndaşları və ictimaiyyət nümayəndələri tədbirdə iştirak etmişlər.



**“Şərq qapısı”**

## 20 Yanvar faciəsinin 27-ci ildönümündə muxtar respublikamızın bütün rayonlarında şəhidlərin əziz xatirəsi ehtiramla anılıb

### *Şərur rayonu*

20 Yanvar faciəsi qədim və zəngin tarixə malik Azərbaycan xalqının müstəqil dövlətçilik ənənələrini bərpa etmək uğrunda mübarizəsində mühüm mərhələ təşkil edir. Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı 1990-cı il yanvarın 20-də sovet ordusunun döyüş hissələrinin yeridilməsi ölkəmizdə misligörünməmiş faciəyə gətirib çıxardı. Ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman övladlarımızı xalqımız dünən bir daha yad etdi. Şəhidlərimiz



Şərur rayonunda da böyük hörmətlə anıldı.

Şərur rayonu muxtar respublikamızın ən böyük rayonlarından biridir. Ötən əsrin sonlarından başlayaraq muxtar respublikamızın digər sərhədyanı yaşayış məntəqələri kimi, Şərur rayonunun da sərhəd kəndləri mənfur ermənilərin hücumlarına məruz qalıb. Lakin igid şərurlular torpaqlarımızın bütövlüyü uğrunda Şərurda, Sədərəkdə, muxtar respublikamızın, eləcə də ölkəmizin müxtəlif bölgələrində qəhrəmanlıqla mübarizə aparıblar.

Dünən muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da şəhidlərimiz bir daha yad edildi. Rayon ictimaiyyətinin nümayəndələri Şərur şəhərindəki Şəhidlər xiyabanına gedərək şəhidlərin ölməz xatirəsinə ehtiramlarını bildirdilər, Vətən övladlarının məzarlarına tər qərənfillər düzdülər.

Rayon sakini Müslüm Vəliyev bizimlə söhbətində bildirdi ki, 20 Yanvar faciəsi xalqımızın qan yaddaşıdır. Bu faciəni törətməkdə əsas məqsəd Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını və mübarizliyini sındırmaq idi. Ancaq xalqımızın qəhrəman övladları öz əməlləri ilə mübarizliklərini sübut etdilər. Həmin gecə şəhid olan övladlarımız tariximizə parlaq səhifə yazdılar, milli azadlığımız, müstəqilliyimiz üçün yol açdılar.

Tədbirdə iştirak edən rayonun daha bir sakini Tağı Hüseynov isə dedi ki, 20 Yanvar hər birimiz üçün kədərli, eyni zamanda qürur günümüzdür. Bu faciə onun təsdiqidir ki, xalqımız öz azadlığını, müstəqilliyini heç nəyə qurban verən deyil. Həmin gün bütün dünya xalqımızın qəhrəmanlığının, mübarizliyinin, azadlıq ruhunun yenilməzliyinin şahidi oldu. Sovet ordusunun qarşısına silahsız, əliyalın çıxaraq canlarından keçən 20 Yanvar şəhidləri xalqımızın heç zaman unudulmayacaq qəhrəmanlarıdır.

**✍ Səbuhi HƏSƏNOV**

### *Babək rayonu*



***Xalqımızın qürur tarixi olan 20 Yanvar hər bir babəklinin də qəlbində daim yaşayır. 45 babəkli müstəqilliyimiz, suverenliyimiz, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalıb. Bu qəhrəman Vətən övladlarının xatirəsi hər zaman dövlətimiz tərəfindən uca tutulur, şəhid ailələrinə hərtərəfli dövlət qayğısı göstərilir. Çünki onlar öz şirin canlarını bizim bugünkü müstəqilliyimiz, azadlığımız yolunda qurban veriblər, ərazi bütövlüyümüzü hər şeydən üstün tutublar.***

Yanvarın 20-də rayon ictimaiyyətinin nümayəndələri Babək qəsəbəsinin mərkəzində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin qarşısına gələrək onların ölməz xatirəsinə ehtiramlarını bildiriblər, abidə önünə gül-çiçək düzüblər.

Mərasim iştirakçılarından Babək qəsəbə sakini Allahverdi Əşrəfov bizimlə söhbət zamanı bildirdi ki, 20 Yanvar Azərbaycan xalqının özünü bir daha tanımasının, dərk etməsinin tarixidir, milli azadlığa, müstəqilliyə gedən yolun başlanğıcıdır. O gün Azərbaycan xalqı şəhidlər verməklə imperiyaya qarşı çıxdı, xalqın azadlıq arzusunun zor gücü ilə boğula bilməyəcəyini sübut etdi. 20 Yanvar həmçinin Azərbaycan xalqının özünəinam, güvən, milli birlik günü, sınaq günü oldu. Xalq anladı ki, onu düşünən, ağır gündə onunla bir yerdə olmağı bacaran lider kimdir. Bu mənada, 20 Yanvar ölkəmizin çoxəsrlik tarixində böyük əhəmiyyət daşıyır. Xalqımız bu faciədən ötən 27 il ərzində sübut etdi ki, öz qəhrəmanlıq tarixinə sadiqdir, ölkəmizin azadlığını və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladlarını, şəhidlik zirvəsinə ucalanları unutmur, qəhrəmanlarını həmişə yaşadır.

Cəhri kənd 2 nömrəli tam orta məktəbin tarix müəllimi Qadir Əkbərov dedi:

– Xalqımız ürəkləri daim Vətən sevgisi ilə döyünən bu qəhrəman oğullarımızın qanı bahasına uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşdu, ölkəmiz suverenlik əldə etdi. 20 Yanvar məzmunca terror aksiyası, qanlı faciə, bəşəriyyət qarşısında cinayət, xarakter etibarilə xalqımıza qarşı yönəldilmiş açıq hərbi təcavüz idi. Törədilmiş faciə nə qədər ağır olsa da, bu, azadlıqsevər xalqımızın mübarizliyini bir daha ortaya qoydu. Bu azadlıq mücadiləsində babəklilər də fəal iştirak edib, şəhidlər verib. Həmişə onları böyük qürur hissi ilə xatırlayırıq.

Nehrəm kənd sakini Akif Hacıyev dedi ki, qısa və şərəfli bir ömür yaşamış şəhidlərimiz bizim andımıza çevriliblər. Bu gün sabaha ümidlə baxmağa haqqımız var. Çünki bugünkü gənclik şəhidlərin qanı bahasına əldə etdiyimiz müstəqilliyimizi, dövlətçiliyimizi qorumağı özünün vətəndaşlıq borcuna çevirib.

**✍ Hafizə ƏLİYEVA**

### *Ordubad rayonu*



***Ordubad rayonunda da bu münasibətlə anım mərasimi keçirilib. Rayon ictimaiyyətinin nümayəndələri səhər saatlarından Ordubad şəhərindəki Şəhidlər xiyabanına gələrək şəhid məzarları üzərinə qərənfillər düzüb, azadlıq mücahidlərinin xatirələrini böyük ehtiramla yad ediblər.***

Mərasimdə Ordubad şəhər sakini Səbahət Mehdiyeva ilə görüşdük. O bildirdi ki, haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verib. Həmin hadisə zamanı yüzlərlə günahsız insan yaralanıb və qətlə yetirilib. Amma bu, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının iradəsini qıra bilməyib. O gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün dünyaya bəyan edib.

Dırnıs kənd sakini Əmiraslan Fərəcov dedi ki, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazıblar. Bu salnamədə ordubadlılar da öz sözlərini deyiblər. Rayon 41 şəhid verib. Rahim Babayev, Vüqar Nəsibov, Eldar Qənbərov, Murad Musayev və digərləri ilə Ordubad sakinləri qürur duyurlar. Onlar bugünkü gənclik üçün örnəkdirlər.

**✍ Muxtar MƏMMƏDOV**

*Ardı 3-cü səhifədə*

## Culfa rayonu



***Muxtar respublikamızın ayrı-ayrı bölgələrində olduğu kimi, Culfa rayonunda da 20 Yanvar faciəsinin 27-ci ildönümü münasibətilə tədbir keçirilib.***

Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə öz canlarından keçmiş, hər birimizə örnək olacaq bir ömür yaşamış, gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasında böyük əhəmiyyət daşıyan, şəhidlik zirvəsinə qalxmış 32 nəfər culfalının xatirəsinə ucaldılmış Şəhidlər Abidə Kompleksi ziyarət edilib. Tədbirdə iştirak edən rayon ictimaiyyətinin nümayəndələri 20 Yanvar şəhidlərinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən müxtəlif döyüşlərdə qəhrəmancasına həlak olmuş culfalıların ruhuna dualar oxuyub, abidə önünə güllər düzüblər.

Şəhidlər Abidə Kompleksini ziyarət edən rayon ictimaiyyətinin nümayəndələrindən Alıyar Quliyev, Zəfər Məmmədov, Həsən Vəliyev, Nəbi Həsənov, Ramazan Cəfərov bizimlə söhbətdə 20 Yanvarın qəhrəmanlıq tariximizin unudulmaz bir səhifəsi olduğunu bildirdilər. Söhbətləşdiyimiz insanların ümumi fikri belədir:

– Xalqımızın tarixinə bir qəhrəmanlıq səhifəsi, yaddaşlarımıza qürur və şərəf günü kimi yazılmış həmin faciəni öz xalqını, dövlətini sevən insanların heç biri unutmur. Çünki müstəqilliyimizin təməl tarixidir 20 Yanvar.

Xalqımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin uyuduğu müqəddəs ünvanlar bu gün hər bir azərbaycanlının ziyarət yeridir. Vətənini qorumağı özünün vətəndaşlıq borcuna çevirən hər bir azərbaycanlı onun üçün şəhidlik zirvəsinə yüksələnlərin xatirəsini həmişə uca tutur.

✍ **Kərəm HƏSƏNOV**

## Kəngərli rayonu

***20 Yanvar faciəsinin 27-ci ildönümü Kəngərli rayonunda da qeyd olunub. Həmin gün rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü, xalqımızın azadlığı naminə canlarından keçmiş qəhrəman övladlarının xatirəsini yad etmək üçün Qıvraq qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gəlib, abidə önünə tər çiçəklər düzərək şəhidlərin xatirəsini dərin ehtiramla yad ediblər.***



Rayon sakinlərindən Polad Nəcəfovla abidəni ziyarətdən sonra həmsöhbət olduq. Bildirdi ki, həmin o məşəqqətli günlər hər birimizin yaddaşına əbədi həkk olunub. 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. 1990-cı ilin 20 Yanvar günü uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Kənan Süleymanov dedi:

– 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələbləri demokratik yollarla həll etməyə nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyilə alışıb-yanan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misligörünməmiş qəddarlıq etsə də, istəyinə nail ola, milli qürurumuzu qıra bilmədi. Qanlı Yanvar faciəsi Azərbaycan tarixinə qəhrəmanlıq günü kimi yazıldı. Bu qəhrəmanlıq tarixində Kəngərli rayonundan olan oğulların da payı var. Xalqımızın azadlıq mücadiləsində Kəngərli rayonundan 36 nəfər şəhidlik zirvəsinə ucalıb. Onların xatirəsi daim əziz tutulur.

✍ **Fatma BABAYEVA**

## Şahbuz rayonu



***Dünən muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da 20 Yanvar faciəsinin 27-ci ildönümü qeyd edilib. Matəm musiqisinin sədaları altında Şahbuz şəhərindəki Şəhidlər Abidə Kompleksinə gələn rayon sakinləri Vətənimizin azadlığı, ərazi bütövlüyü uğrunda canlarından keçən igidlərin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Qeyd edək ki, bu yüksək amallar uğrunda Şahbuzun 19 nəfər vətənpərvər övladı şəhid olub. Rayon ictimaiyyətinin nümayəndələri kompleksin önünə gül dəstələri düzüb, şəhidlərin ruhuna dualar oxuyublar.***

Şahbuz ölkəmizin işğalçı dövlətlə sərhəd rayonlarından biridir. Bu gün qüdrətli ordumuz tərəfindən etibarlı şəkildə qorunan Şahbuzda həmin dövrdə də mənfur erməni daşnaklarına qarşı layiqli cavab verilib. Şahbuzun igid oğlanlarından Rövşən Orucov, Müşfiq Həsənov Naxçıvanın sərhəd bölgəsi olan Sədərəyə hücumların qarşısının alınmasında qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıblar. Rayonun Keçili kəndindən olan və o dövrdə Bakı şəhərində ali təhsil alan tələbə Teymur Orucov 20 Yanvar gecəsinin şəhididir.

Tədbirdə iştirak edən Şahbuz rayon sakinləri şəhidlərlə qürur duyduqlarını, onların xatirəsini uca tutduqlarını bildirdilər. Kükü kəndindən gəlmiş Nizami Bağırov düşüncələrini bizimlə bölüşərək dedi ki, 20 Yanvar günü Azərbaycanın qəhrəmanlıq tarixinin parlaq səhifəsidir. Çünki 1990-cı il yanvarın 20-də xalqımız öz məğrurluğunu bir daha göstərdi. Soyuq yanvar gecəsi əliyalın tanklar qarşısına çıxan qəhrəman Azərbaycan övladları azad yaşamağın onlar üçün hər şeydən üstün olduğunu, müstəqillik yolundan bir daha dönməyəcəklərini dünyaya sübut etdilər. Adları yaddaşımızdan heç vaxt silinməyəcək şəhidlərimiz azadlıq yolunda canlarından keçməklə əbədiyyətə qovuşublar. Ona görə də biz bu günü eyni zamanda xalqımızın mübarizlik, əyilməzlik və məğrurluq günü kimi fəxrlə anırıq.

✍ **Əli CABBAROV**

## Sədərək rayonu

***20 Yanvar faciəsinin 27-ci ildönümü Sədərək rayonunda da anılıb. Rayon sakinləri Sədərək kəndindəki Şəhidlər xiyabanını ziyarət edərək Vətən yolunda qurban getmiş insanların xatirəsinə ehtiramlarını bildiriblər.***



Ziyarət zamanı rayon sakinlərindən bir neçəsi ilə görüşüb həmsöhbət olduq. Sədərək döyüşlərində iştirak etmiş Əsgər Bağırov dedi ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının azadlıq uğrunda apardığı mübarizənin şanlı tarixidir. Ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları həmin gün canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Böyük itkilərlə, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnən bu faciə eyni zamanda xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu bir daha nümayiş etdirib. Həmin dövr Sədərək sakinləri üçün heç də asan olmayıb, mənfur ermənilərin torpaqlarımıza hücumları zamanı insanlar şəhidlik zirvəsinə ucalıblar.

Digər bir həmsöhbətimiz Teymur Quliyev isə qeyd etdi ki, ötən əsrin 80-ci illərinin sonunda keçmiş Sovetlər İttifaqının hər yerində olduğu kimi, Azərbaycanda da ictimai-siyasi vəziyyət olduqca gərgin idi. Dünyaya meydan oxuyan böyük bir imperiya artıq çökürdü. Bu dövrdə, 1989-cu ilin dekabr ayında muxtar respublikada SSRİ sərhədlərinin dirəklərinin sökülməsi Moskvanı bərk hiddətləndirmişdi. Qısa müddətdən sonra mərkəz Azərbaycan xalqının azadlıq istəyini boğmaq üçün imperiya qoşunlarını Bakıya yeridərək qanlı 20 Yanvar qırğınını törətdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan hələ 8 saat əvvəl ermənilər keçmiş sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçdilər. Sədərək, Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər, təxminən, saat 11-dən etibarən intensiv hücumlara məruz qaldı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmiş və Kərki kəndini işğal etmişdilər. Sədərək intensiv top atəşinə tutulmuş, kənddə ilk şəhidlər verilmişdi. Sədərəklilər bu ağır günləri unutmur, ordumuzun bugünkü qüdrətinə arxalanaraq qurub-yaradırlar.

Sakinlərdən Vidadi Həsənovun sözlərinə görə, ermənilərin məhz yanvarın 19-da cidd-cəhdlə bütün istiqamətlərdə muxtar respublikaya hücum etməsi onu göstərirdi ki, onlar Bakıya qoşun yeridiləcəyindən və bununla da, Naxçıvanın köməksiz qalacağından xəbərdar idilər. Bu, SSRİ rəhbərliyinin çirkin planının tərkib hissəsi idi. Ümumilikdə, mənfur erməni yaraqlıları 1990-1993-cü illərdə Sədərəyə 14 dəfə hücum edib, 1990-cı ilin martında bu sərhəd bölgəsinə 300-ə yaxın top mərmisi atıblar. Bu qeyri-bərabər döyüşlərdə 500-ə yaxın ev, məktəb binaları, ictimai-inzibati binalar, sosial obyektlər dağıdılıb. Həmin ağır günlərdə sədərəklilərə muxtar respublikamızın hər yerindən, həmçinin ölkəmizin 14 rayonundan kömək gəlib, döyüşlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalıb. Sədərək bu bölgədə doğulub boya-başa çatan və şəhidlik zirvəsinə ucalan 52 vətənpərvərin yurd yeridir. Onların xatirəsi Sədərəkdə daim uca tutulur.

✍ **Səbuhi HÜSEYNOV**





## Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib

***Qan yaddaşımızda yaşayan 1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlığı uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar, bugünkü müstəqil Azərbaycan dövlətinin tarixinə həmin faciəni xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazdılar.***

O gün Vətən yolunda öz canlarından keçən, şəhidlik kimi uca bir zirvəni fəth edən, ölümsüzlüyə yüksələn Azərbaycanın oğul və qızlarının məzarları bu gün müqəddəs ünvanlar kimi xalqımızın ziyarət yerlərinə çevrilib.

27 ildir ki, şəhidlərimizin ruhuna hörmət əlaməti olaraq məzarları ziyarət edilir, onların keçdikləri şərəfli ömür yolunun yeniyetmə və gənclərimizə örnək olmasını bir daha xatırlatmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Hər il olduğu kimi, bu il də yanvarın 20-də saat $12^{00}$-da Azərbaycanın bütün ərazilərində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da doğma yurdunun, xalqının azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyatın hərəkəti dayandırılıb, avtomobillərdən səs siqnalları verilib. Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılaraq səs siqnalları verilib.

**Xəbərlər şöbəsi**










Bəhruz Kəngərli: "Qaçqınlar" silsiləsindən

# Bəhruz Kəngərli taleyi

***Bəzən biz yolu seçirik, bəzən də yol bizi. Hər iki halda heç kim bu yolun uğursuzluğunu istəmir. Elə 1892-ci il yanvarın 22-də Naxçıvanda öz dövrünün qabaqcıl ziyalılarından sayılan Şirəli bəy Kəngərlinin ailəsində dünyaya göz açan oğlana Bəhruz adı verəndə də, heç kəs adı "Xoş gün" kimi tərcümə olunan uşağın otuz ildən sonra məşhur rəssam kimi gözlərini əbədi yumacağını bilmirdi. Hələ körpəlikdə anasını itirən, 9 yaşından isə səhhətində problem yaranan gənc rəssam təhsil sonrası davam edən cəmi 7 illik yaradıcılığı ilə adını Azərbaycanın sənət tarixinə yaza bildi. Məşhur Kəngərlilər nəslinin nümayəndəsi olan görkəmli rəssam Azərbaycan gerçəkliyində ömrün mənasının onun uzunluğundan asılı olmadığını əyani olaraq təsdiqlədi, – desək, heç də səhv etmərik.***

Etiraf edək ki, Bəhruz Kəngərli zamanında təkbaşına bütöv bir yaradıcı nəslin görə biləcəyi işləri həyata keçirib. Onun özünün firavanlıqdan uzaq bir durumda yaratdığı "Qaçqınlar" qrafik silsiləsi vətənpərvər sənətkar-vətəndaş mövqeyinin təzahürü kimi qəbul olunur və dəyərləndirilir. Bəhruz Kəngərli erməni təcavüzündən bəhs edən "Qaçqınlar"ı ilə yurdun ən çətin anlarında XX əsr Azərbaycan təsviri sənətinin mənəvi yükünü daşımalı olan, amma bunu sona qədər edə bilməyən rəssamların üzünü ağartdı, – desək, yanılmarıq. Onun bu silsiləsi mənfur ermənilərin əsl xislətini ifşa edən təkzibolunmaz bədii sənədlərdir...

Onun çox da uzun olmayan tərcümeyi-halını xronoloji ardıcıllıqla vərəqləsək, ilk növbədə, uşaq yaşlarında eşitmə qabiliyyətini itirən Bəhruz Kəngərlinin təhsil aldığı rus-tatar məktəbindən uzaqlaşmağa məcbur olduğunu deməliyik. Bundan sonra isə o, təhsilini Şirəli bəyin köməyi ilə alıb. Həmin ağır illərdə lap uşaq yaşlarından həvəs göstərdiyi rəssamlıq onun sevimli məşğuliyyətinə çevrilib. Bir müddət keçəndən sonra o, qəti olaraq rəssamlıq təhsili almaq qərarına gəlir və atasından onu Tiflisə oxumağa göndərməsini xahiş edir. Şirəli bəy isə oğlunun uzaq bir yerdə rəssamlıq məktəbində oxuya biləcəyinə inanmadığından tərəddüd edir. Lakin Tiflisdə dostlarının olması və Bəhruzun öz qüvvəsinə inamı, oxumağa olan sonsuz həvəsi Şirəli bəyi buna razılıq verməyə məcbur edir. Beləliklə, 1910-cu ildə 18 yaşlı Bəhruz rəssamlıq təhsili almaq üçün Tiflisə yollanır və imtahan verir, o vaxtlar Zaqafqaziyadakı yeganə rəssamlıq məktəbinə qəbul olunur. 1915-ci ilə kimi burada təhsil alan, dövrünün tanınmış fırça ustalarından sənətin sirlərini öyrənən gənc rəssam təhsilini başa vurduqdan sonra doğma Naxçıvana qayıdır.

Onun cəmisi yeddi il davam edən yaradıcılığı kifayət qədər zəngin olub. Bəhruz Kəngərlinin bu müddətdə 2 minə yaxın rəngkarlıq, qrafika və teatr-dekorasiya əsəri yaratdığı məlum olsa da, bizim dövrə onların 500-ə qədəri gəlib çatıb. Bu əsərlərdə həyata və gördüklərinə onun fərdi, heç kimə bənzəməyən baxışlarını duymaq mümkündür.

Zəngin bədii irsi ilə Azərbaycan təsviri sənətinə yeni nəfəs bəxş edən Bəhruz Kəngərli, heç şübhəsiz, məşhur nəslin şöhrətini Naxçıvan çərçivəsindən uzaqlara yayan sənətkarlardan olub. XX əsr Azərbaycan təsviri sənətində yenicə formalaşmağa başlayan bir çox janrların inkişafında görkəmli rəssamın əvəzsiz rolu vardır.

Onun yaradıcılığı janr əlvanlığı ilə seçilir. Ancaq bizə yadigar qoyub getdiyi bədii irsdə portret və mənzərələr çoxluq təşkil edir. Hələ tələbə ikən Naxçıvanda ilk fərdi sərgisini təşkil edən (1914) rəssam insanların məhz həmin janrlara olan marağını görüb "Naxçıvan yadigarı" albomunda mənzərələrə və portretlərə geniş yer verib.

Bu məqamda deyək ki, əgər Bəhruz Kəngərlinin müxtəlif janrlı əsərlərinin yalnız az bir hissəsi insan və təbiət gözəlliyini vəsf edirsə, əsərlərin çoxu rəssam tərəfindən gördüyü və yaşadığı tarixi olduğu kimi əbədiləşdirmək, başqa sözlə desək, gələcək nəsillərə çatdırmaq üçün işlənilib.

Bəhruz Kəngərlinin portretlər qalereyası kifayət qədər zəngindir. Burada, əsasən, rəssamla birlikdə doğma şəhərdə yaşayan müxtəlif yaşlı insanların, eləcə də erməni təcavüzündən xilas olmuş qaçqınların obrazları yer alıb. Onun kömür və karandaşla çəkdiyi "Azərbaycanlı qadın" (1913), "Rus dili müəllimi Mirzə Məhəmməd Zamanbəyovun portreti" (1917), eləcə də yağlı və sulu boya ilə işlədiyi "Şirniyyatçı Kərbəlayı Heydərin portreti" (1919), "Tatar kişinin portreti" (1920), "Peyğəmbər" (1920), "Oğlan portreti" (1917), "Kişi portreti" (1919), "Avtoportret" (1920) və sair portretlər rəssamın insan psixologiyasına dərindən nüfuzetmə bacarığını əks etdirir.

Görkəmli rəssamın "Qaçqınlar" silsiləsinə otuza qədər sulu boya ilə çəkilmiş əsər daxildir. Həmin rəsmləri əsrlərin qovşağında çəkilmiş ürəkağrıdan kinokadrlarla, fotoşəkillərlə tutuşdursaq, kifayət qədər oxşar cəhətlər taparıq. Bəhruz Kəngərli 1918-1921-ci illərdə Qərbi Azərbaycandakı öz dədə-baba yurdlarından qovulub Naxçıvana pənah gətirmiş qaçqın soydaşlarımızın portretlərini yaddaşımızın korşalmaması üçün işləyib. O, böyük vətənpərvərlik nümunəsi göstərərək başımıza gələnlərin bədii salnaməsini ("Qırmızı yaylıqlı qız", "Qaçqın qadın", "Qaçqın İmran çanta ilə", "Canfəda kəndindən qaçqın oğlan", "Avşar kəndindən qaçqın qız Cümsün" və sair) yaradıb. Əminik ki, rəssam Canfəda, Avşar və digər kəndlərdən, bölgələrdən olan qaçqınların tükürpədici zahiri görkəmini, gözlərindəki ümidsizlik notlarını əbədiləşdirməklə sanki bizə bunları unutmamağı vəsiyyət edib.

Bəhruz Kəngərlinin yaradıcılığı janr etibarilə rəngarəng olsa da, bu zənginlikdə mənzərənin say etibarilə çox olması kifayət qədər görünəndir. Bu mənzərələr arasında Naxçıvan təbiətini vəsf edən əsərlərlə yanaşı, yaşanan tarixi hadisələrin gələcək nəsillərə çatdırılmasına xidmət edən nümunələr də az deyil. Bu mənada, əgər onun "Minarəsi zədələnmiş məscid" (1920), "Tərk edilmiş ev" (1921), "Naxçıvanda xarabalıqlar" (1921), "Eylabat kəndində viran olmuş darvazalar" (1919), "Möminə xatın türbəsi" (1919), "Əshabi-Kəhf dağı" (1921), "Nuhun qəbri" (1920) və sair əsərləri tarixi durumun əbədiləşdirilməsinə xidmət edirsə, "Ağaclar" (1917), "Dağ mənzərəsi" (1918), "Albalı ağacları" (1916), "Qarlı dağlar" (1916), "Cənuba görünüş" (1921), "Dağın zirvəsi" (1918), "Ayın çıxması" (1919), "Payız" (1921) və sair əsərlər doğma yurdun təbiətinə xas olan gözəllikləri üzə çıxarmaq, qürur qaynağına çevirmək üçün işlənilib.

Mənzərə və portretlərə nisbətən rəssamın natürmortları çox azdır. Onun yaratdığı natürmortların hamısı bizim dövrə gəlib çatmayıb. Cəmisi beş natürmort yadigar qalıb. Həmin əsərlərdən birini o, 1916-cı ildə ("Qızıl güllər"), qalanlarını isə ("Mavi rəngli dolça", "Çıraq", "Naxışlı mis cam", "Mürəkkəb qabı") ölümündən bir il əvvəl – 1921-ci ildə çəkib. Bu əsərlərdə rəssamın onu əhatələyən maddi-mədəniyyət nümunələrinə xas olan tarixiliyi, gül-çiçəklərin daşıdığı gözəllik qaynaqlarını üzə çıxarmaq, estetik qaynağa çevirmək istəyi qabarıqdır.

Görkəmli rəssamın yaradıcılığında teatr-dekorasiya sənəti ilə bağlı gördüyü işlər də xüsusi yer tutur. Naxçıvan teatrında rəssam kimi fəaliyyət göstərən Bəhruz Kəngərli bir sıra tamaşalara ("Ölülər","Pəri-cadu", "Dağılan tifaq", "Arşın mal alan", "Müsibəti-Fəxrəddin", "Nadanlıq" və sair) milli koloritdə zəngin səhnə tərtibatı verib, forma və məzmun vəhdəti ilə seçilən dekorasiyalar, müxtəlif rəng çalarlarında gözəl pərdələr, tamaşaların ruhunu əks etdirən geyim eskizləri və səhnənin cazibəsini artıran pannolar hazırlayıb.

Azərbaycan təsviri sənət tarixində adı həm də tez-tez çox məhsuldar rəssam kimi xatırlanan Bəhruz Kəngərli 1922-ci ilin 7 fevralında dünyaya əlvida dedi. Əslində, gələcəkdə bütün Azərbaycanın fəxri olacaq rəssamı lap uşaqlıqdan müxtəlif xəstəliklər izləyirdi və gənc rəssam da çox vaxt yalnız özünə bəlli olan bu əzablara qatlaşa-qatlaşa sanki anbaan ölümünə doğru gedirdi. Amma yaratmağından da qalmırdı. Odur ki, bəlkə də, bir soyuq fevral günü dünya ilə vidalaşanda Bəhruz Kəngərli qoyub getdiklərindən narahat deyildi. Yaratdıqlarının bu gün hər birimizə qürurverici qəbul olunması da bunu təsdiqləyir. Dəfn günü onu son mənzilə yola salmağa gələn insan axınının nəhayətsizliyi isə sübut edirdi ki, Naxçıvan kimi itirdiyini yaxşı bilir...

Bəhruz Kəngərli yaradıcılığına və şəxsiyyətinə ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında böyük ehtiram göstərilir. Naxçıvan şəhərində Bəhruz Kəngərlinin muzeyinin, adını daşıyan Rəssamlar Parkının yaradılması, parkda onun abidəsinin ucaldılması, 2012-ci ildə rəssamın 120 illik yubileyinin qeyd olunması görkəmli sənətkarın irsinə göstərilən diqqətin, muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin ifadəsidir.

*Azərbaycan incəsənətinin tarixində özünəməxsus xidmətləri ilə yaşayan Bəhruz Kəngərli kimi sənətkarlar bəşəri ideyalı insanlar olublar. Cəmi 30 illik ömründə əbədiyaşar əsərlərə həyat verən, incəsənət tariximizin unudulmayan nümayəndəsinə çevrilən Bəhruz Kəngərli həmişə müasirimiz olaraq bizimlə bərabər gələcəyə addımlayır.*


**Ziyadxan ƏLİYEV**
***Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru***



**ŞƏRQ** *qapısı*
**Baş redaktor:**
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 62